# AYNADAKI yolçuluq

Bəxtiyar ASLAN



Orada, bir buludun altında, bir yolun kənarında yarpaqları saralmış bir ağac, oxunub kənara atılmış bir kitab, əşyaları toparlanıb, qabğarılıb tərk edilməyə hazırlanmış, daha doğrusu, tərk edilməyə məruz qalmış bir ev kimi otururdun. Evlərin heç bir zaman tərk edilməyə hazırlaşmadığını, hər zaman tərk edilməyə məruz qaldıqlarını düşünür, bir yandan da öz-özünə: "Pərdələrimi, tüllərimi də çıxarıblar. Axşam günəşi bu tülün arxasından daha gözəl dolurdu içimə" – deyə pıçıldayırdın.

Çemodanlarını qabğarmışdın və bu evi tərk edirdin. Evi tərk edərkən, özün də tərk edilən bir evə dönürdün və məni gözləyirdin "Xoşca qal" demək üçün. Nə vaxt sənin yanına gəlsəm, boynuma sarılıb içimdəki eşqi dərindən içinə çəkərək "Cənnət qoxusudur bu" deyirdin. Bu səninlə son görüşümdür, bilirəm. Bunun sonuncu görüş olmasını mən istəmədim. Əksinə, buna məruz qaldım. Amma səni də suçlamıram. Bu, mükəddər bir şeydir.

Gecikdim, bilirəm. Kitab dükanlarında ilişib qaldım. Rəflərin önündə uzun-uzadı dayandım, az qala bütün kitablara toxundum, bir çoxunun üz qabığını aralayıb gəlişigözəl göz gəzdirdim. Gecikirdim. Vidalaşmağa gecikmək istəyirdim. Amma sən gözləməkdən yoruldun, bilirəm. Öz səhifələrini çevirib oxuyan bir kitaba dönmüşdün. Çantandan gümüşü aynanı çıxarıb uzun-uzadı baxmağa başladın. Budur, gəldim. Belə edəcəyini bilə-bilə, bunu etməyini gözləyərək gəldim. Neçənci səhifədəydin? Özün belə unutdun.

O gümüşü aynaya çiyinlərinin üstündən mən də baxdım və bunu sən də gördün. Sən öz üzünü də, mənim üzümü də, özünə baxdığını da, mənim sənə baxdığımı da gördün. Mən sənin üzünü, üzünə baxdığını, aynada məni gördüyünü həm aynada, həm də aynadan qıraqda gördüm. Gördüm və bildim. Gördüm və bildim deyirəm. Çünki aynada görünən heç bir şeyin gerçəkdə dəyərinin olmadığını bilirəm. Sən bu üzdən mənim sənə çiyinlərinin üstündən həm aynanın içindən, həm də kənarından baxdığımı gördün sadəcə. Bunu bilmək sənin üçün imkansız idi. Sən gözəl idin və bunun fərqindəydin. Gözəldin və yalnız özünü deyil, hər şeyi aynanın içində görürdün. Həyatı da öz gerçəkliyinin içində deyil, aynanın içindəki gerçəklikdə yaşayırdın. Bu üzdən çemodanlarını hazırlamışdın. Mən sənə "getmə" belə deməyəcəkdim, getməyini heç istəmədiyim halda, getməyinin bütün budaqlarımı qıracağını, bütün meyvələrimi yerə tökəcəyini bildiyim halda. Bəlkə də, dönüşü olmayacaq bir yolçuluğun başlanğıcındaydın. Bəlkə də, bir daha səni aynaya baxdığın yerdə görüb çiyinlərinin üstündən eyni aynaya baxa bilməyəcəkdim. Sonsuzluğa uzanan bir "əlvida"nın qapısının özündə durub sənə baxırdım. Saçlarının qoxusu bu "əlvida"nın imkansızlığını hər zaman olduğundan daha dəhşətli hiss etdirirdi. Bu, qapıdan keçməyin ən qaçılmaz olduğu an, keçməməyin ən dəhşətli duyulduğu an idi. Çemodanlarını hazırlamışdın və biz vidalaşacaqdıq.

Əlindəki gümüş aynaya çiyinlərinin üstündən baxırdım və sənin aynadakı üzünün gerçəkliyinin qıraqdakı üzünün gerçəkliyindən daha kəskin olduğunu dəqiqliklə görür, dəqiqliklə bilirdim. Bunun belə olması tamamilə

sənin ayna gerçəkliyində yaşamağınla bağlıydı. Aynanı qapadıb çantana qoyacağın an gəldikdə, səni bir az öz aləmində yaxalamaq, bir az öz gerçəkliyimdən qaçmaq, daha çox da o qapıdan keçməmək amacıyla özümü aynanın içinə atdım. Bunu necə etdiyimi heç bir zaman söyləməyəcəm, əlbəttə. Çünki bunun bilinməsi, eynən mənim öz gerçəkliyimlə aynanın içinə girməyim kimi, ayna gerçəkliyinin də bayıra çıxmasına və bütün dünyaya yayılmasına səbəb ola bilər. Hətta sən özün belə gerçəkliyini aynanın eşiyinə çıxarmağı yoxlaya bilərsən. Bu, o qapıdan keçməklə eyni anlamlı bir hərəkət ola bilər.

Aynanın içində əvvəlcə bədənimin dağılaraq, əriyərək, çözülərək – ayna gerçəkliyində bu dəyişmənin başqa kəlmələrlə ifadə edildiyini, bəlkə, sən də bilirsən – işığa döndüyünü gördüm. Geri dönüb baxdıqda sənin qalxaraq boynuma sarıldığını gördüm. Həmin anda ağlımdan həmin aynanın eşiyinə çıxmaq keçdi. Amma bu sarılmağın ayrılıq öncəsi bir sarılma olduğunu bilirdim və bir az sonra bir daha boynuma sarılaraq “xoşca qal” dediyini eşitmək, yarpaqlarını tökdüyünü görmək istəmirdim. Gerçək bir ağac kimi tək-tək tökməyəcəkdin yarpaqlarını, küləyin əsməsini gözləməyəcəyini bilirdim. Bilirdim və qorxurdum. Öz küləyini özün əsdirəcək və birdən bütün yarpaqlarını ölürmüş kimi, hər şeydən vaz keçirmiş kimi, “xoşca qal”ını dünyaya səslənirmiş kimi tökəcəkdin. Bunu görməyə dözə bilməzdim, bu mənim içimə vədəsiz bir qış gətirə bilər, girdiyim aynanın eşiyinə çıxara bilərdi. Mən oraya elə bunu görməmək, bunu yaşamamaq üçün girmişdim. Sürətlə aynanın dərinliklərinə doğru qaçmağa başladım. Arxama, aynanın çölünə baxdım və sənin də mənim əlimdən tutaraq geriyə doğru qaçdığını gördüm. Aynanın boşluğunda sonsuzluğa doğru qaçmaq, durub-dayanmadan qaçmaq və eşiyinin mənə hazırladığı gerçəklikdən uzaqlaşmaq istəyirdim. Mən aynanın içiylə irəlilədikcə eşikdə qoyduğum hər şeyin, zamanın və məkanın içində geriyə, başlanğıca doğru sürətlə qaçdığını görürdüm. İçəridəki və bayırdakı bu yürüşlərin əslində təkcə bir dairəvi hərəkətə xidmət etdiyini, bir daha yürüşə başlar-başlamaz anladım. Bu dairəvi hərəkətin başlanğıc nöqtəsində sənin içinə baxdığın ayna var idi. İki yöndən gerçəkləşən bu yürüşlərin sonsuzluğun içində, ya da bilavasitə sonsuzluğun özündə qarşılaşacağını bilir və buna ümid edirdim.

Ayna və işıq öz hökmünü yerinə yetirməyə başlamışdı. İşıq içində işığa dönmüşdüm və mənə varlığımı andıran yenə də işıqdan başqa bir şey deyildi. İşıq öz gücünü fərqli şəkillərdə ortaya qoyaraq mənə öz fərqimdə olmaqda kömək edirdi. İşığın gur olduğu yerlərdə mən yox idim. Özümü mənə düşən işığı əks etdirməklə qavraya bilirdim. Bu yöndə, bayırdakılarla aramızda bir oxşarlıq olduğunu hər zaman fikrimdə tutmaq istəyirəm. Aynada əks olunma qavramını birtəhər gerçəkləşdirə bilməyim, mənə onun gerçəkliyinin mütləq olmadığına dair ilk ipucu da verdi. Bu sənin aynadakı gerçəkliyinin də mütləq olmadığı anlamına gəlirdi. Buna rəğmən, ayna gerçəkliyini gözəl olmağından başqa hansı səbəbdən tərcih etdiyini bilmək üçün uzun bir yolçuluğu gözümün altına aldım. Yolun lap əvvəlində, ilk addımdaca mən aynanın içinə doğru, sən isə bayırda mənim əlimdən tutaraq geriyə doğru qaçmağa başlayanda içimdə bir cəhənnəm alovlandığını, eyni anda da içimin başqa bir yerində cənnətin ilk irmağının da sərin-sərin axmağa başladığını hiss etdim. Atdığım hər addım cəhənnəmin də, cənnətin də iki qatlanaraq böyüməsinə səbəb olurdu. İçimdə bir-birini bəsləyən iki əjdaha var, deyə düşündüm. Onlardan biri digərini yox etmək istəyir, müxtəlif soyuq silahlarla onun başını kəsirdi. Amma hər dəfəsində kəsilən başın yerində iki yeni baş peyda olur, baş kəsən bununla rəqibini böyütməkdən, çoxaltmaqdan başqa bir şeyə yaramadığını anlayır; intəhası yenə də eyni şeyi təkrarlayırdı. Yaxud da hər ikisi hərəkətsiz dayanır, aynanın içində atdığım hər addım onların çoxalmasına səbəb olurdu. Bəlkə də, bütün bunlar elə görüntü çoxalmasından ibarət idi.

Mən bunları düşünərkən aynanın içindən, işığın ən gur olduğu yerdən sahibsiz bir ağız açıldı. Gözlərimin qamaşdığı yerdən açılan bu ağızı görə bilmirdim, ancaq yolçuluq təcrübəm bunu sezməyə imkan verirdi. Bayırda da yolçuluğun öyütlərini duymuşdum. Bəlkə, dərvişlərin uzaq səyahətlərdə əvvəl-axır qərar tutmaları da eyni səbəbdəndi. Yenə də eyni

fəhmin yardımıyla bu sahibsiz ağızdan çıxan, yaxud da çıxdığını zənn etdiyim bir neçə kəlməni eşidən kimi oldum. Varlıq, kölgə, savaş, gerçək kimi bir çox gəlişigözəl kəlmələr söylənirdi. Daha doğrusu, mən bu kəlmələri gəlişigözəl sözlər kimi eşidirdim. Bu kəlmələr sözün əsl mənasında kəlməydilər. Onlar mücərrəd anlamlarından uzaqlaşıb səsə bürünməyə qərar verməmişdilər. Onları öz gerçəkliklərindən primitiv bir münasibətlə uzaqlaşdıraraq səsə bürüyən və bayırda adına kəlmə deyilən şeyə döndərən mən idim. Bu, onları əskiltmək demək idi və bütövlükdə mənim əskikliyimdən qaynaqlanan bir məcburiyyət idi. Odur ki, onlar içimdə onları çevirdiyim səsdən daha dəqiq və geniş bir anlama gəlirdilər. Mən bunu hiss edir və onların içimdə əmələ gətirdikləri fikirləri ifadə edə biləcək kəlmələr tapmağa çalışırdım. Bu arada, bayır dünyada heç bir qarşılığı, bənzəri olmayan bir yığın kəlmə düşünüb tapdım. Ayna gerçəkliyində bunların hamısının dərin anlamları olduğuna bütün varlığımla inanırdım.

Zehnimdə qıvrılıb qalan kəlmələr məni işıq divarları ilə əhatə olunmuş, geniş, sərin və səssiz bir odaya çəkib apardı. Bu odanın təsviri gerçəklikdən çox uzaq idi. Bunu elə sənin özün də təxmin etmişdin. Çaşmadan ətrafa baxarbaxmaz ayna dünyasının təsəvvürü onun bayırının gerçəkliyinə nə qədər də bənzəyir, – deyə düşündüm. Hər tərəfdə aynalar var idi. Bura aynalarla əhatə olunmuş ayna dükanına oxşayırdı. Divarlardan səssizcə axıb çağlayan şəlalələri gördüm. Yorğunluğumu xatırlayıb su içmək üçün ovuclarımı açdım və irəli uzatdım. Sular ovuclarımı doldurmaq bir yana, əlimi belə islatmırdı. Çağlamağına davam edən şəffaf, köpüklü şəlalələrin bu mənzərəsi içimdə zərrəcə də çaşqınlıq yaratmırdı. Bəlkə də, məni çaşdıran elə bu idi. Bir-bir bütün aynaların qarşısında durub, bütün aynaların içinə girib səni axtardım uzun zaman. Hamısında biri digərinə bənzəməyən başqa-başqa üzlər peyda olurdu. Hamısında sənsizliyi, sənsizliyə məhkumluğu, məndəki gerçəkliyinin tərsini görüb üzülür və ağlayırdım. Bütün aynaların içinə girib-çıxmaq qərarına gəldiyim zaman səni, sənin ayna gerçəkliyinin səbəbini bula bilmədiyimdən hirsli halda dükandakı bütün aynaları qırıb tökməyə başladım. Bu əsnada şəlalələrin də öz sularını içlərinə çəkərək qeyb olmağa başladığını gördüm. Sonuncu aynanın qırılması sonuncu şəlalənin çəkilməsi, sonuncu divarın yıxılması demək idi. Durduğum məkan beləcə yoxa çıxırdı. Yenə də sonsuzluq içində yalqız qalmışdım. Sonsuzluq və qaranlıq... Aynaların qırılması işığın yoxa çıxmasına səbəb olmuşdu, aynaya girdiyim zaman işıqla doğranan vücudum da qaranlığa dönmüşdü. Bəlkə də, aynalar qırıldıqca öz içinə çəkilən şəlalələr yox, mən idim. Aynadakı yolsuzluğum öz içimdə bir yolçuluğamı dönmüşdü? Aynanın eşiyinəmi çıxmışdım? Yoxsa aynanın içindəki “mən”in içindən başlayan bir yolçuluğuydumu bu?

Qaranlığın eşiyində olduğumu hiss etdim. Əl havasına özümü yoxladım. Xeyr. Toxuna bilmir, hiss edə bilmirdim. Hərəkətimdən qalmırdım, bəzi hərəkətlər edirdim, amma buna toxunmaq, hiss etmək demək olmazdı. Qaranlığın eşiyində olmaq isə hiss yox, nəsə ondan üstün bir şey idi. Sahibsiz ağız bu dəfə də qaranlığın içindən çıxdı. Ağzından yenə də eyni kəlmələr töküldü. Büzüşərək dayandığım yerdə oturdum. Sözlər haralarasa dəyib qayıdır, qayıdan sözlər başqa yerlərə çırpılıb çoxalırdı. Sonsuz bir uğultu içində qalmışdım. Hər şeyi: – aynanı, bayırı, səni, hətta öz varlığımı belə unudaraq bütün varlığımla, bütün qaranlığımla mücərrəd bir düşüncənin içərisinə gömüldüyüm bir anda sahibsiz ağızdan çıxan kəlmələr səsə bürünərək içimdə sıralandılar. Sahibsiz ağız: varlığın öz kölgəsiylə savaşması gerçəyi böyüdür,- deyirdi. Bəlkə də, sirr elə bu idi. Hətta mütləq bu idi, bu olmalıydı. Bunun məhz belə olmasına səbəbsiz və sarsılmaz bir inam yarandı məndə. Aynanın sirri elə bundadı, – dedim. Uzun bir yolçuluğun sonunda aynanın sirrini tapmışdım. Odur ki, savaşan əjdahalar da öz gerçəkliklərinin içində öz kölgələri ilə savaşırdılar. Aynadakı əjdahanın kölgəsi bayırda, bayırdakı əjdahanın kölgəsi isə içəridə idi. Yerdə qalan şey təkcə bu sirrin arxasına keçməkdi. Özümü, varlığımı, qaranlığımı dinlədim. Yolçuluğumun lap əvvəlindəki cəhənnəmin yerini cənnət tutmuşdu. Son bir həmləylə bu yolçuluğu bitirib bayırdan geriyə doğru başlayan yolu tuta bilərdim. Bayır, bayırın gerçəkliyi, o gerçəkliyin içiylə geriyə doğru

gedən sən və səninlə bərabər mən bir sirr qədər yaxın, bir sirr qədər uzaq idi mənə. Son bir həmlə sənə qovuşmağıma yetəcəkdi. Bu həmləni necə edəcəyimi bilmirdim. Sirrin eşiyinə necə çıxa bilərdim? Bura qədər gəlib çıxmışkən bu qapı açılmalıydı. Bayırın bilgiləri mənə bəzi şeylər söyləsə də, o bilgilərin burada hökmü yerimirdi. Qaranlıqda da olsa, hələ aynanın içində olduğumu bilirdim. Amma bu bilgi də aynanın gerçəkliyində olan digər bilgilər kimi, əslində bilgi olmayan, bilgiyə dönə bilməyən bilgilərdən idi. Məzmunca içlərində bir hərəkət cövhəri daşımırdılar. Aynadakı yolçuluğumun da ayna gerçəkliyinin sınırları içində gerçəkləşdiyini bilirdim. Bilgi cövhərindən məhrum olmağımın səbəbi bunu bilməyim idimi, yoxsa yolçuluğumun gerçəyimi? Bəlkə də, hər ikisi? Bilmirdim. Aynanın gerçəkliyinin bilgisizliyi iləmi, bilmirdim.

Bunları düşünərkən qaranlığın içindən süzülüb gələn bir işıq şüasının üzümü yaladığını hiss edib başımı qaldırdım. İşığın gəldiyi tərəfə baxdım. Gözlərimin qamaşmasının keçməsi üçün bir müddət gözləməli oldum. Sonda işığın içində əlində ayna bir uşaq peyda oldu. Gülümsər üzüylə məni yanına çağırırdı. Yavaş-yavaş irəli getdim. Yaxınlaşdıqca siması bəlli olurdu. Bir neçə addım qalmış gerçəklə qarşılaşdım. Bu tanış sima mənim uşaqlığımın özü idi ki, var idi. Lap yaxına gəldiyim zaman əlindəki aynanı havada saxladığı başqa bir aynayla qarşı-qarşıya tutaraq, iki aynanın bir-birində əks etməsini seyr etdiyini gördüm. Bu eynən mənim uşaqlığım idi. Xatirələrin köməyi ilə özümü bir əminlik duyğusunun qucağına atdım. Bəli, indi qarşımda dayanmış uşaqlığımın etdiklərini, doğrudan da, mən hələ o ikən dəfələrlə etmişdim. Xatırlayırdım. İki aynanın bir-birinin içərisində sürəkli olaraq çoxalmasını dərin bir heyrət içində, işıq və fizikadan xəbərsizlikdən doğan məsum bir heyrətlə və heyranlıqla seyr edərdim. Bayır haqqında bilgilər bunun nə qədər bəsit bir işıq oyunu olduğunu mənə öyrətdiyi zaman itirdiyim heyrəti yaşayırdı uşaqlığım. Bu, ləzzətli bir heyrət idi.

Uşaqlığımla görüşməyimin səbəbini anlamağım uzun çəkmədi. Sən aynanın içində yol başlayan zaman geriyə doğru gedən hər bir şey kimi bayırdakı "mən" də uzun sürən yolçuluqdan sonra içində daşıdığı cövhərlə qovuşmuşdu. Odur ki, qarşımda dayanan uşaqlığım da mənim özüm, cövhərimdi. Deməli, dairəvi hərəkət tamamlanmışdı. Aynanın çölünə çıxmaq, sirri adlamaq üçün balaca bir xətt qalmışdı. Xəttin arxasında, bəlkə də, düz üstündə sən vardın. Sənin gerçəyin vardı. O zaman kəsiyi aynanın içində axtardığım gerçəyin, aynanın sonunda, dairəvi hərəkətin tamamlandığı nöqtədəydi. Amma yenə də aynanın içindəki yolçuluğum öz anlamından heç nə itirmirdi. Çünki bu dairəvi hərəkətin gerçəkləşməsi üçün yolçuluq şərtdi.

Tamamilə düşündüyüm kimi oldu. Səni o xəttin düz üstündə tapdım. Orada tək-yalqız, bir ayna gerçəkliyi olaraq dayanmışdın. Sənə yaxınlaşıb, qarşında dayandım. Sənə baxdıqda əvvəlcə özümü, sonra mənim içimdəki "sən"i, daha sonra isə mənim içimdəki "sən"in içindəki "mən"i gördüm. Sona qədər bir-birimizin içində çoxalan görüntülərlə bir-birimizə baxmağa başladıq. Həmin anda aynanın içindəki yolçuluğumun məni də aynaya döndərdiyini anladım. Səsimi qısaraq səndən: "İndi biz sonadək iki ayna kimi qarşı-qarşıya oturaqmı?" – deyə soruşdum. Sən də səsini qısaraq "Bəli" dedin.

Böyük bir meydanın qurtaracağında dayanıb taksi çağırdıq. Boynuma sarıldın və eyni şeyi təkrarladın: Cənnət qoxuyursan. "Xoşca qal" demədin amma. Bunun səbəbini ikimiz də bilirdik. Sonuncu dəfə əllərimə toxunaraq taksiyə əyləşdin. Hay-küyün, tünlüyün içində gözdən itənə qədər arxanca baxdım. Sərt bir külək əsdi və yarpaqlarını sovurdu. Küçə lampalarının altında gözlərimi qurulayıb, geriyə doğru qaçmağa başladım. Qapılarını yavaş-yavaş bağlamaq üzrə olan kitab dükanlarına özümü vurdum. Sonuncu müştəriləri mən oldum. Oturduğumuz yerə gəldim. Çiyinlərinin üstündən gümüşü aynaya baxdım. Qalxıb boynuma sarıldın. Üz-üzə iki ayna kimi oturub, bir-birimizin içində çoxalmağa, bir-birimizi çoxaltmağa başladıq.

Xəbərin oldumu?..

*Azərbaycan türkcəsinə çevirən:*
**İbrahim İLYASLI**